# QƏRBİ AZƏRBAYCAN





*Prezident İlham Əliyev Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə çıxış edərkən bir sıra mühüm mövzulara toxunub. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma prosesləri, Azərbaycanın regional enerji və nəqliyyat layihələrində oynadığı həlledici rol, həmçinin beynəlxalq əməkdaşlıq platformalarındakı uğurlu təşəbbüsləri və digər məsələlər barədə ətraflı məlumat verib.*

Bununla yanaşı, dövlət başçısı milli maraqlar kontekstində xüsusi əhəmiyyətə malik olan Qərbi Azərbaycan məsələsinə də diqqət ayıraraq bildirib: "Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk. Bu qətnamə ilə yanaşı, Nazirlər Şurasının yekunlarına dair "İstanbul



# Xankəndi Zirvəsində Qərbi Azərbaycan çağırışı

Bəyannaməsi"ndə indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır. Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək". Bu çıxış bir daha onu göstərir ki, Azərbaycan dövləti təkcə torpaqlarının işğaldan azad edilməsi ilə kifayətlənmir, həm də tarixi ədalətin və insan hüquqlarının bərpası naminə mübarizəni davam etdirir. Hazırda Qərbi Azərbaycan məsələsi həm daxili ictimai-siyasi kursun, həm də xarici diplomatik strategiyanın ayrılmaz tərkib hissəsinə çevrilib.

Qeyd edək ki, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğul olan Qərbi Azərbaycan İcması məsələ ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, 3-4 iyul 2025-ci il tarixlərində Xankəndidə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə Prezident İlham Əliyev Qərbi azərbaycanlıların qayıdışı məsələsini gündəmə gətirib və bu məsələ Zirvə görüşünün yekun sənədi olan Xankəndi Kommünikesində əksini tapıb. Bu mötəbər platformada Qərbi Azərbaycan məsələsinin qaldırılması, qayıdış prosesinə beynəlxalq dəstəyin gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Bəyanatda, həmçinin, bu məsələnin beynəlxalq gündəliyə ardıcıl şəkildə çıxarılmasına və geniş dəstəyin təmin edilməsinə görə Prezident İlham Əliyevə təşəkkür ifadə olunub.



Mövzunu şərh edən **Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Səbinə Salmanova** deyib: "Ölkə başçımızın çıxışında vurğulanan əsas məqamlardan biri də Qərbi Azərbaycanlıların tarixi torpaqlarına dinc yolla qayıtmaq hüququ oldu. Bu, yalnız milli maraqlar məsələsi deyil, həm də fundamental insan hüquqları baxımından beynəlxalq hüququn tələblərinə əsaslanan haqlı mövqedir. Qərbi Azərbaycanlılar əsrlərlə yaşadıqları dədə-baba torpaqlarından (indiki Ermənistan ərazisindən) mərhələli şəkildə deportasiya olunub, əmlakları talan edilib, məscid və qəbiristanlıqları dağıdılıb".

Deputat əavə edib ki, onların qayıdış hüququ, BMT-nin İnsan Hüquqları Bəyannaməsi, Vətəndaş və Siyasi Hüquqlar Haqqında Pakt və Avropa İnsan Hüquqları Konvensiyası kimi nüfuzlu beynəlxalq sənədlərlə qorunur. Artıq bu məsələ beynəlxalq platformalarda da ciddi şəkildə gündəmdədir. Belə ki, İslam Əməkdaşlıq Təşkilatının son iclasında qəbul olunmuş "İstanbul Bəyannaməsi" Qərbi azərbaycanlıların qayıdış hüququnu dəstəkləyən ilk rəsmi beynəlxalq sənədlərdən biridir. Bu sənəddə Ermənistana açıq şəkildə müraciət edilir ki, Qərbi azərbaycanlıların hüquqlarını tanısın və onların geri dönüşünü təmin etsin.



**Siyasi şərhçi İlyas Hüseynov** bildirib ki, dövlət başçısının Xankəndidə Qərbi Azərbaycanla bağlı səsləndirdiyi fikirlər Azərbaycanın siyasi gündəliyini əks etdirir: "İndiki Ermənistan ərazisindən zorla qovulmuş şəxslərin hüquqlarının bərpası, onların təhlükəsiz və ləyaqətli şəkildə Qərbi Azərbaycana qayıdışının təmin olunması əsas prioritetlərimiz sırasındadır. Ölkə rəhbəri bu məsələdə rəsmi Bakının mövqeyini mühüm beynəlxalq tribunadan, proqram xarakterli nitqində ifadə etmişdir. Eyni zamanda, İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən Zirvə görüşündən sonra qəbul edilən kommunikedə də Qərbi Azərbaycanla bağlı fikirlərin yer alması rəsmi Bakının növbəti beynəlxalq uğurudur. Çünki İƏT-ə üzv ölkələr yalnız iqtisadi deyil, eyni zamanda siyasi və geosiyasi baxımdan da bir-biri ilə sıx bağlıdır. Bu baxımdan, Qərbi Azərbaycan məsələsinin belə bir platformada əks olunması onun beynəlxalq gündəmdə yenidən aktuallaşmasına mühüm töhfə verir.

Bu mövzu postmüharibə reallıqları kontekstində bizim üçün müstəsna əhəmiyyət daşıyır və eyni zamanda Azərbaycanın hədəf və məqsədlərini aydın şəkildə ifadə edir. Bu məqsədlərə çatmaq üçün hər bir azərbaycanlı əlindən gələni etməlidir. Qərbi Azərbaycan İcması bu istiqamətdə fəal iş aparır, çoxsaylı tədbirlər həyata keçirir. Bu tədbirlərdə ekspertlərin fəal iştirakı təmin olunur, millət vəkilləri də bu proseslərdə mühüm rol oynayır. Rəsmilər isə bu siyasətin genişləndirilməsinin və şaxələndirilməsinin tərəfdarıdır. Ümumilikdə, hesab edirəm ki, dövlət başçısı tərəfindən müəyyənləşdirilən siyasi kurs uğurludur və yeni xarici siyasət strategiyasında da Qərbi Azərbaycan məsələsi prioritet mövzulardan biri olaraq qalacaqdır".



**Politoloq Samir Hümbətovun** sözlərinə görə, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə Görüşündə və İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Qərbi azərbaycanlılarla bağlı alınan qərarlar xüsusi önəm daşıyır: "Artıq 30 ildən çoxdur ki, bu insanların hüquqları kobud şəkildə pozulur və bu vəziyyət hələ də davam edir. İkinci Qarabağ müharibəsində Azərbaycan dövləti öz ərazilərini işğaldan azad etməklə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni özü icra etdi. Lakin Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindən deportasiya olunması, onların qaçqın vəziyyətinə salınması beynəlxalq hüquq baxımından Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasətini göstərir. Bu baxımdan, cənab Prezidentin məsələ ilə bağlı çıxışı və irəli sürdüyü tələblər beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Səsləndirilən fikirlər sadəcə mövqe deyil, eyni zamanda hüquqi və siyasi tələbdir. Bu, həm də Azərbaycan xalqının iradəsini əks etdirir. Dövlət başçısı bütün vətəndaşların Prezidenti olaraq bu məsələdə xalqın maraqlarını və haqlı mövqeyini müdafiə edir. Əsas məqsəd isə Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıdışın təmin olunmasıdır".

**Musa BAĞIRLI,**
**"Respublika".**